# İşgüzarlıq əzmi doğma yurda qayıdışa inam hissini artırır

*Torpaqları işğal altında olan Cəbrayıl rayonunun sakinləri sabahkı günə inam hissi ilə baxırlar. Dövlət başçısı cənab İlham Əliyevin apardığı uzaqgörən daxili və xarici siyasət cəbrayıllılarda doğma yurda qayıdış hissini günbəgün gücləndirir. Ən başlıcası rayon sakinləri öz dədə-baba ənənələrinə sadiq qalaraq var qüvvə ilə çalışır, istər iqtisadi, istər sosial sahədə nailiyyətlər əldə edirlər. Son 3 ildə sakinlərin müvəqqəti məskunlaşdıqları Biləsuvar rayonu ərazisindəki qəsəbələrdə həyat şəraiti xeyli yaxşılaşmışdır. İndi bu qəsəbələrdə daimi elektrik enerjisi, mavi yanacaq, su əhalinin ixtiyarındadır. Yeni çəkilən rahat asfalt yollar gediş-gəliş problemini aradan qaldırmışdır. Dövlət başçısının tövsiyə və tapşırıqları Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov və icra aparatı kollektivi tərəfindən uğurla icra olunur. Əməkdaşımız* ***Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənovdan*** *cari ildə görülən işlər barədə danışmağı xahiş etmişdir:*

- Cari ildə rayon üzrə 17900 ailə təsərrüfatında birləşmiş olan 81 min nəfər əhalimiz respublikanın 54 şəhər və rayonunda məskunlaşmışdır. Rayon əhalisinin problemlərinin öyrənilməsi və həllinə köməklik göstərilməsi üçün müvəqqəti kompakt məskunlaşma yerlərində ümumilikdə 12 səyyar görüş-qəbul keçirilmiş, belə tədbirlərdə 500 nəfər rayon sakini iştirak edərək onları narahat edən məsələlərlə bağlı 64 təklif irəli sürmüşdür. Onlardan 14-ü müsbət həll olunmuş, 47-si barədə isə müvafiq tədbirlər görülmüşdür.



Birbaşa xidmətimizdə olan Biləsuvar rayonu ərazisindəki köçkün qəsəbələrində əhalinin fasiləsiz enerji, qaz, yol, içməli və suvarma suyu ilə təminatı və məişətlə bağlı məsələləri nəzarətdə saxlanmış, rayonun imkanları daxilində olmayan problemlər barədə aidiyyəti mərkəzi icra orqanları qarşısında məsələlər qaldırılmışdır.

Məlumat üçün bildirim ki, 2007-ci ildə istifadəyə verilmiş 1856 ailəlik beş qəsəbənin daxili içməli su xətlərinin və həmin qəsəbələrə 1 saylı qəsəbədəki su anbarından gələn, uzunluğu 15000 paqometr mərkəzi boru xəttinin dəyişdirilməsi ilə bağlı keçən ildən başlayaraq aidiyyəti qurumlara etdiyimiz müraciətlər reallaşır. Artıq bu layihənin icrasına başlanmışdır.

Qəsəbələrdə əmək qabiliyyətli qadınların işə cəlb olunması üçün çoxsaylı müraciətlərimiz nəticəsində "Azərxalça" ASC-nin Cəbrayıl filialı tikilərək bu ilin əvvəlindən fəaliyyətə başlayıb və hazırda bu müəssisədə 70-ə yaxın xalçaçı qadın çalışır. Lakin etiraf olunmalıdır ki, müəssisə işçi baxımından hələ tam gücü ilə işləmir. İndi hər birimiz tarixən mövcud olmuş xalçaçılıq ənənəmizin davam etdirilməsi üçün qəsəbələrdəki işsiz qadınların müəssisəyə cəlb olunmasına çalışmalıyıq.



Rayon əhalisinin işğaldan əvvəl əsas məşğulluq sahəsi olan kənd təsərrüfatının qəsəbələrdə inkişaf etdirilməsi əsas istiqamət kimi qəbul edilib. Rayon əhalisi tarixən taxılçılıq, pambıqçılıq, üzümçülük, baramaçılıq və heyvandarlıqla məşğul olmuşlar. Bunu nəzərə alaraq ölkə Prezidentinin tapşırığına uyğun qəsəbə ərazisində 2016-cı ildən etibarən sakinlər tərəfindən pambıq əkininə başlanmış və həmin ildən tut tingləri əkilməklə baramaçılığın inkişafı üçün təməl yaradılmışdır.




Bu məqsədlə rayona ilkin olaraq 2016-cı ilin sonunda 14 min, 2017-ci ildə 6 min, 2018-ci ildə 27.5 min - cəmi 47.5 min ədəd Çin sortu, 2017-ci ildə 13 min, 2018-ci ildə 51 min olmaqla cəmi 64 min isə yerli tut tingi verilmiş və ümumilikdə qəsəbələrdə 111.5 min ədəd tut tingi əkilib.

İlkin olaraq rayona 2017-ci ildə 2 qutu, 2018-ci ildə 26 qutu, builki mövsümdə isə 125 qutu ipəkqurdu verilmişdir. Qəsəbələrdə mövcud olan yem bazası tələbatdan çox az olsa da keçən il baramaçılarımız əsasən kənar rayonlardan gətirdikləri tut yarpağı hesabına yekunda bir ton tapşırığa qarşı 1 ton 415 kiloqram yaş barama yetişdirərək "Azəripək" MMC-yə təhvil vermişdir.

Bu ildə də yaxşı nəticə əldə etmişik. Baramaçılara əməli köməklik məqsədi ilə rayon icra hakimiyyətində Qərargah yaradılmış, ipəkçilik üzrə mütəxəssislər və sahə üzrə təlimçilər bu işlərə səfərbər edilmişdir. Qərargahın üzvləri və qəsəbələrdə fəaliyyət göstərən işçi qrupları vaxtaşırı yerdəki vəziyyəti öyrənmiş və gündəlik qarşıya çıxan problemi operativ olaraq həll etmişlər. Nəticə sevindiricidir. 78 nəfər kümçü ilə müqavilə bağlanmış, 4851 kiloqram yaş barama istehsal olunmuşdur. Bu isə keçən ildəkindən 3421 kiloqram çoxdur.





Pambıq əkini ilə məşğul olan sakinlər ilkin olaraq 2016-cı ildə 34, 2017-ci ildə 72, 2018-ci ildə 90.3 hektar, bu ildə isə 102.23 hektar sahədə pambıq əkmişlər. Müqayisə üçün bildirim ki, pambıq sahələrinin hər hektarından birinci ili 17.3 sentner, 2017-ci ildə 24.7 sentner, 2018-ci ildə isə 34.5 sentner məhsul götürülmüş, bu ildə də yüksək məhsul əldə edilməsi üçün aqrotexnikaya uyğun işlər görülməkdədir. Beləliklə, qəsəbə sakinlərinin ailə büdcəsinə taxıl və heyvandarlıq məhsullarından əlavə pambıq və baramaçılıqdan da gəlir daxil olmağa başlamışdır. Belə ki, hesablamaya görə keçən il tədarük təşkilatlarına təhvil verilən xam pambıq və barama satışından qəsəbə sakinləri ümumilikdə 250 minə yaxın gəlir əldə etmişdir.

Hesab edirəm ki, hər iki məhsulun alıcısının dövlət olduğu nəzərə alınsa, pambığın və baramanın sakinlərimiz üçün daha sərfəli olduğunu görürük.

Ötən ilin payızında bu ilin məhsulu üçün 2360 hektar buğda, 470 hektar arpa olmaqla cəmi 2830 hektar taxıl əkilmiş, aqrotexnikaya uyğun bütün becərmə və suvarma işləri aparılmışdır. Hazırda taxıl biçini başa çatmaq üzrədir. 2980 hektar taxıl sahəsinin 2820 hektarında biçin aparılmış, 9625 ton məhsul əldə edilmişdir. Məhsuldarlıq hektardan 34,5 sentner olmuşdur ki, bu da keçən ildəki göstəricidən yüksəkdir.

Bu ilin yazında isə 8 hektarda şəkər çuğunduru, 31 hektarda kartof, 17.5 hektarda soğan, 20 hektarda yonca, 19 hektarda tərəvəz əkini aparılmış və hazırda yazlıqların məhsul yığımı davam etdirilir.

Rayon üzrə şəxsi təsərrüfatlarda 10736 baş iribuynuzlu, 113136 baş xırda buynuzlu heyvan saxlanılır. Rüb ərzində 1868 ton süd, 492 ton ət, 1 milyon 215 min ədəd yumurta istehsal olunmuşdur.

Ölkəmizdə sosial siyasətin əsas istiqamətlərindən biri də əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması, vətəndaşların ünvanlı sosial yardımdan asılılığının aradan qaldırılmasıdır.

Dövlətimiz tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə xüsusi diqqət yetirilir.

Bu baxımdan ölkə Prezidenti cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 aprel tarixli Sərəncamı mühüm əhəmiyyət daşıyır.

Bu Sərəncam dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla, işsiz şəxslərin ailə bizneslərini qurmalarına, kiçik və orta sahibkarlığın inkişafına təkan verir.

Məlumat üçün bildirim ki, artıq əhalimizin kompakt məskunlaşdığı bu qəsəbələrdə və işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində özünüməşğulluq tədbirinə başlanmışdır.

Keçən il rayon əhalisindən cəmi 148 nəfər özünüməşğulluq layihəsi çərçivəsində təlimə cəlb olunaraq biznes ideyasını müdafiə etmiş, onlardan indiyə kimi 106 nəfər sakinimiz aktivlərlə təmin olunmuşdur. Layihəyə cəlb edilənlərin hamısı heyvandarlıq sahəsini seçmiş, onlardan 36 ailəyə 72 baş damazlıq inək, 11 ailəyə 44 baş kökəltmə istiqamətli dana, 59 ailəyə isə 1239 baş damazlıq ana qoyun verilmişdir.



Bu ilin birinci rübündə rəsmi statistikaya əsasən rayon üzrə 65 nəfər daimi işlə təmin olunmuşdur ki, onlardan da 3 nəfəri mövcud müəssisələrdə, 32 nəfəri yeni açılmış müəssisələrdə, 30 nəfəri isə fiziki şəxs kimi fəaliyyət sahəsi yaratmışdır.

Məşğulluq Mərkəzinə isə işaxtaran kimi 147 nəfər müraciət etmiş, onlardan 3 nəfərə işsizlik statusu verilərək müavinət təyin olunmuş, 5 nəfər işə düzəlmiş, 35 nəfər özünüməşğulluq layihəsinə, 272 nəfər isə peşəyönümü məsləhətlərinə cəlb olunmuşdur.

Keçən dövr ərzində Cocuq Mərcanlı kəndində abadlıq-quruculuq, eləcə də əhalinin məşğulluğu istiqamətində xeyli işlər görülmüş, yaradılmış sosial-iqtisadi infrastruktur nəticəsində kənddə həyat işğaldan əvvəlki axarına düşmüşdür.

Cocuq Mərcanlı kəndində məskunlaşan ailələrin hər bir üzvünə 0.25 hektar olmaqla əkin sahəsi paylanmış, kənd sakinlərinin istifadəsinə verilmiş pay torpaqlarında 45 hektar taxıl, 30 hektar arpa, 5 hektar yonca, 6 hektar pambıq və 8 hektar şəkər çuğunduru əkilmiş, gələcəkdə ipəkçiliyin inkişaf etdirilməsi məqsədi ilə kənddə 3 min ədədə yaxın Çin Xalq Respublikasından gətirilmiş tut tingləri paylanaraq 1.5 hektar ərazidə tut bağları salınmışdır.

Bundan əlavə kənd sakinlərindən 15 ailə istixana, 15 ailə arıçılıq təsərrüfatı, 25 ailə isə özünüməşğulluq tədbiri çərçivəsində mal-qara almışdır. Hazırda kənddə suvenir istehsalı müəssisəsinin tikintisi aparılır və yaşayış evlərinin həyətlərinə suvarma suyu çəkilir.

Keçən müddət ərzində rayon üzrə cəmi 3 milyon 784 min manatlıq (9.1 faiz çox) ümumdaxili məhsul istehsal edilmiş, ondan 2 milyon 987.8 min manatlıq kənd təsərrüfatı, 378.2 min manatlıq sənaye, 374.5 min manatlıq tikinti, 12.3 min manatlıq nəqliyyat, 31.2 min manatlıq isə rabitə sahəsində olmuşdur.

Rayon əhalisinin aztəminatlı təbəqələrinin və xəstəlikdən əziyyət çəkənlərin müraciətlərinə xüsusi diqqət göstərilmiş, bu təbəqədən olan 177 nəfərə ümumilikdə 25960 manat maddi yardım edilmiş, dövlət büdcəsindən isə rayon köçkünlərinə 6 milyon 456 min manat vahid aylıq müavinət ödənilmişdir.

2019-cu ilin birinci rübü ərzində rayon icra hakimiyyəti başçısı aparatına ümumilikdə 102 vətəndaş müraciəti (ötən illə müqayisədə 13 ədəd az) daxil olmuşdur.

Onlardan 44-ü birdəfəlik maddi yardım göstərilməsi, 18-i əhalinin sosial müdafiəsi, 12-si torpaq, 9-u mənzil, 8-i İHB və ərazi nümayəndəliklərinin fəaliyyəti, 6-sı qəbul, 2-si ailə, qadın və uşaq problemləri, 1-i işlə təmin olunma, 1-i təhsil, 1-i qaçqınlarla və məcburi köçkünlərlə bağlı olub.

Cari ildə "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin tələblərinə uyğun olaraq Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı yanında Şurada 7 məsələ müzakirə edilmiş, bununla yanaşı bir müşavirə, 6 rayon tədiri keçirilmişdir.

Şura iclaslarında rayonun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr, vətəndaş müraciətlərinə baxılması vəziyyəti, təhsil və səhiyyə sahələrini əhatə edən aktual məsələlər müzakirə edilmişdir.

İcra başçısı deyilənlərə əlavə olaraq bildirir ki, rayonda həyat öz ritmi ilə davam edir. Təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində əldə olunan nailiyyətlər sevindiricidir. Orta məkəb məzunlarının ali məktəblərə qəbul imtahanlarında əldə etdikləri göstəricilər Cəbrayılda təhsil ənənələrinin uğurlu davamına parlaq nümunədir. Hər il olduğu kimi cari ildə də rayon tibb müəssisələrində əhalinin ödənişsiz müayinəsi əhali tərəfindən razılıqla qarşılanıb.

Biz də əlavə edirik: Uğurlar davamlı olsun.

**Tofiq HÜSEYN,**
**"Respublika".**









